**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyi**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**Ə M R**
**__________№__________**
**Bakı**

**R-111 saylı 14.12.2016-cı il tarixli Əmr**

***Məzmunu: 2016/2017-ci tədris ilində payız semestrinin imtahan sessiyasının keçirilməsi üzrə qərargah və apelyasiya komissiyasının yaradılması haqqında***

2016/2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasını müvafiq qaydalara uyğun keçirmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək münaqişələrin və neqativ halların operativ surətdə aradan qaldırmaq məqsədi ilə

***Ə M R  E D İ R Ə M :***

1. 2016/2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının keçirilməsi haqqında verilmiş R-106 saylı, 06.12.2016-cı il əmrin 17-ci bəndinə əsasən imtahanların təşkilində və gedişində yarana biləcək problemlərin həll edilməsini və neqativ halların operativ qarşısının alınmasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə Qərargah yaradılsın:

| | | | |
|---|---|---|---|
| 1. | prof.İ.Ə.Əliyev | -Rektorun ümumi məsələlər üzrə müşaviri | -sədr |
| 2. | prof.M.M.Qurbanova | -Tədris elektron Mərkəzinin müdiri | -üzv |
| 3. | prof.X.Q.Qənbərov | -Mikrobiologiya kafedrasının müdiri | -üzv |
| 4. | prof. F.M.Abbasova | -Cinayət prosesi kafedrasının müdiri | -üzv |
| 5. | dos.İ.H.İbadov | -Tədris şöbəsinin müdiri | -üzv |
| 6. | dos.F.A.Şiriyev | -Həmkarlar İttifaqı Komitəsinin sədri | -üzv |
| 7. | Ə.N.Mirzəyev | -Elm və innovasiyalar üzrə prorektorun müavini | -üzv |
| 8. | T.M.Sadıqov | -Baş hüquqşünas | -üzv |
| 9. | D.M.Qənbərov | -Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri | -üzv |
| 10 | İ.Z.Kərimov | -Tələbə Gənclər Təşkilatının sədrinin müavini | -üzv |
| 11. | b.f.d.E.B.İsayeva | -Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasının 0.5 ştat müəllimi | -katib |

2. Qərargahın nəzdində universitet üzrə «Qaynar xətt» xidməti yaradılsın. Bu məqsədlə Universitetin əsas binasında və tədris korpuslarında şikayət, təklif və məlumatlar üçün hər gün mövcud qaydada möhürlənməklə xüsusi qutular asılsın.

3. Qərargahın sədri prof.İ.Ə.Əliyevə tapşırılsın:

a) Qərargaha və universitet daxilində fəaliyyət göstərən «Qaynar xətt»-ə daxil olan hər bir şikayət ərizəsi operativ surətdə araşdırılsın və mövcud qanunvericiliyə uyğun neqativ hallara yol vermiş şəxslərə qarşı tədbirlərin görülməsi haqqında təkliflər versin;

b) Təhsil Nazirliyində fəaliyyət göstərən «Qaynar xətt» xidmətindən daxil olan hər bir şikayətin operativ sürətdə araşdırılaraq nəticəsi barədə Təhsil Nazirliyinə məlumat verilməsini təmin etsin;

4. İmtahanların nəticələri barədə şikayətlərə baxmaq və aşkar edilmiş çatışmazlıqları aradan qaldırmaq məqsədilə Qərargahın nəzdində aşağıdakı tərkibdə apelyasiya komissiyaları yaradılsın:

***Təbiət fakültələri üzrə :***

| | | | |
|---|---|---|---|
| 1. | prof.X.Q.Qənbərov | -Mikrobiologiya kafedrasının müdiri | -sədr |
| 2. | prof.Ə.Ə.Əliyev | -İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri | -üzv |
| 3. | prof.M.H.Qocamanov | -Geodeziya və kartoqrafiya kafedrasının müdiri | -üzv |
| 4. | prof.İ.Q.Məmmədov | -Neft kimyası və kimya texnologiyası kafedrasının professoru | -üzv |
| 5. | b.e.n.N.T.Məmmədova | -İnsan və heyvan fiziologiyası kafedrasının 0,5 ştat müəllimi | - katib |

***Humanitar fakültələr üzrə :***

| | | | |
|---|---|---|---|
| 1. | prof. F.M.Abbasova | -Cinayət prosesi kafedrasının müdiri | -sədr |
| 2. | dos. M.Q.Abdullayev | -Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri | -üzv |
| 3. | Prof.X.İ.İsmayılov | -Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri | -üzv |
| 4. | dos.R.Ə.Cavadov | -Gender və tətbiqi psixologiya kafedrasının müəllimi | -üzv |
| 5. | f.ü.d.S.X.Vəliyeva | -Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə ETL-nin elmi işçisi, Azərbaycan Dilçiliyi kafedrasının 0,5 ştat müəllimi | - katib |

5. Fakültə dekanları imtahan qiymətindən narazı qalan tələbələrin imtahandan sonra 2 (iki) gün müddətində apelyasiya komissiyasına ünvanlanmış ərizələrində əsaslandırılmış rəylərini bildirdikdən sonra apelyasiya keçirilsin.

6. Fakültə dekanlarına və Tədris Elektron Mərkəzinin müdiri prof.M.Qurbanovaya tapşırılsın ki, imtahan yazı işlərinin Qərargaha vaxtında təhvil verilməsini təmin etsinlər.

7. Tədris Elektron Mərkəzinin müdiri prof.M.M.Qurbanovaya tapşırılsın ki, imtahan yazı işlərinin təkrar yoxlanılması üçün tələb olunan işlərin Qərargaha verilməsini təmin etsin.

8. Əmrin icrasına nəzarət Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor prof. İ.N.Əliyevaya həvalə edilsin.

***ƏSAS:*** BDU üzrə verilmiş R-106 saylı, 06.12.2016-cı il tarixli əmr.

***R E K T O R*** ***akademik A.M.MƏHƏRRƏMOV***

**Layihəni hazırlayıb:**

Tədris şöbəsinin müdiri

_______________dos.İ.H.İbadov

**Razılaşdırılıb:**

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor

________________prof.İ.N.Əliyeva